ədalət.-2018.-25 may.-S.3

# Xəyanətdən xəbər verən film

**Kinodramaturq və kinorejissor Rüstəm İbrahimbəyovun "Qafqaz üçlüyü" filmi cəmiyyətdə birmənalı qarşılanmayıb. Qeyd edək ki, sözügedən filmdə Azərbaycan xalqı vəhşi, qəddar, riyakar, mədəniyyətsiz, milli kökləri olmayan obrazda, ermənilər isə alicənab, sülhsevər, "vəhşi türkün qurbanı" kimi təqdim olunurlar.**

**"Kaspi" qəzeti və "Kaspi Təhsil Mərkəzi"nin təsisçisi, filologiya üzrə fəlsəfə doktoru Sona Vəliyeva** məsələyə münasibət bildirərkən bunları deyib: "Təəssüf edirəm ki, bu gün bizim dövlətçiliyimizə zərər vurmaq istəyən şəxslər var. Vaxtilə əsərləri ilə özünü bizə tanıdan Rüstəm İbrahimbəyov bu gün əsərləri ilə özünə nifrət qazandırır".

S.Vəliyeva R.İbrahimbəyovun bu əməlini xəyanət adlandırıb: "Bu dövlət bizimdirsə, ona əl qaldıranlara qarşı əlimizi qaldırmalıyıq. Bu xəyanətdir, buna başqa ad vermək olmaz. Dövlət mükafatı almaq istəyirsənsə, onu başqa yerdə ara. Biz belə insanları lənətləməliyik. Biz bəlkə Əkrəm Əylisliyə qarşı bir az yumşaq davrandıq deyə, o cəsarətləndi. Amma buna da cəsarət deyil, xəyanət demək olar. Bu dövlət Ulu Öndər Heydər Əliyevin bizə qoyduğu əmanət və yadigardır. Biz dövlətimizi qoruyaraq onu gələcək nəsillərə çatdırmalıyıq. Biz xəyanətlərə qarşı səsimizi qaldırıb mübarizə aparmalıyıq. Xəyanətə heç nə ilə haqq qazandırmaq mümkün deyil".

**Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin dekanı, professor Cahangir Məmmədli** məsələ ilə bağlı danışarkən Fransız yazıçılardan misal gətirib: "Fransız yazıçılarından biri Nobel mükafatına layiq görülmüşdü. Amma o mükafatdan imtina etdi və onun təqdimat mərasimində iştirak etmədi. Səbəb isə onu bildirdi ki, bu mükafat iki böyük şərtlə təqdim edilir: Birincisi, Nobel mükafatı Qərb ölkələrinin sənətkarklarına sənətlərinə görə, Şərq ölkələrində isə öz xalqına şər atanlara verilir. Ona görə də həmin yazıçı Nobel mükafatını təqdim edənləri obyektiv hesab etmədi və imtina etdi. "Bizim" o yazıçılar da bəzən elə bilirlər ki, öz xalqına, millətinə şər ataraq Nobel mükafatı almaq olar. Amma bu heç vaxt olmayacaq. Mən o qədər təəssüf hissi keçirirəm ki, insan millətinə, dövlətinə, xalqına bu qədər xəyanət edərmi? Bunun qədəri yoxdur.



Sənətkarın estetik ideya deyilən anlayış var. O estetik ideya ancaq və ancaq insanı, xalqı, oxucunu yaxşılığa çəkməlidi. Gözəlliyə cəlb eləməlidi. Bunun estetik ideyası insanı aşağılayan ideyadı. Ona görə o ideya heç vaxt qəbul oluna bilməz".

**Tanınmış kinorejissor, əməkdar incəsənət xadimi Şeyx Əbdül Mahmudbəyli** isə filmin müəllifini xəyanətkar adlandırıb: "Mən Rüstəmin bu filmi barədə eşidəndə şoka düşdüm. Azərbaycan xalqının içindən qidalanan bir adamın qocalanda belə xərifləyib, gic-gic danışması, xəyanətə qoşulması məni dəhşətə gətirir. O ya xəstədir, ya da ona vurulan hansısa psixotrop dərmanların təsiri altındadır. Ya da qoyublar tərəzinin bir gözünə, o biri gözünə də özü ağırlığında var-dövləti.

Bunun ikinci bir adı yoxdur. Ömrünün yaşlı çağında içində böyüydüyü xalqına bu səviyyədə xəyanəti bağışlanmazdır. Kinofilm elə bir təbliğat vasitəsidir ki, bütün dünyaya yayılır, tarixdə qalır. Heç şübhə yoxdur ki, şantaj təbliğatı ilə məşğul olan satqın erməni diasporu bu filmi hər dilə tərcümə edib, bütün dünyaya gösstərəcəklər.

Rüstəm bizim indiyə qədər apardığımız ədalət savaşımız, soyqırımla bağlı dəlil-sübutların üstündən xətt çəkir. Çünkü sıradan bir adam deyil bu alçaq. Rüstəm, ola bilər sən xəstəsən, şəxsi müstəvidə kiminləsə ədavətin var, amma düşünmürsən ki, xalqını satqın, xəyantəkar düşmənin ayağına verirsən?"

Ş.Mahmudbəyli həmkarını yaşadığı ölkədən qovduracağını da bəyan edib: "Onun Gürcüstanda villası var, oturub kef edir özü üçün. Artıq xəstədir, qocalıb, aydın məsələdir. Oğlunu, qızını, arvadını da bu işə cəlb edib. Bunun qarşısı alınmalı, ordan qovulmalıdır.

Elm, mədəniyyət adamlarının imzasını toplayıb onu Gürcüstandan qovduracam. O filmin nümayişi dayandırmalıdır. Azərbaycanın elm, mədəniyyət adamları, ziyalıları ayağa qalxıb, onun xəyanətkar simasını ortaya qoymalı, şantajına cavab verməlidir. Mən keçən il ona zəng vurub, telefonda biabır etdim.

Alçaq özü də şamaxılıdır. Erməni sənin dədəni, babanı doğrayıb Cümə məscidinə töküb, arvad-uşağını zorlayıb, körpələrini qılıncdan keçirib, sən utanmırsan? Azərbaycanın çörəyi gözündən-burnundan gəlsin, ay alçaq, ay şərəfsiz. Axı onların içində sənin qohum-əqrəban da var. Bu qədər vicdansızsan, bu qədərmi ağlını itirmisən, sən xəstəsən".

**Ədil Ədilzadə**